Əliyeva Simuzər Əliyulla qızı

## XALQ BƏDİİ DÜŞÜNCƏSİNİN H. ARİF ŞERİNDƏ POETİK İNİKASI

Xalq yaradıcılığındakı bitib - tükənməyən zənginlik bütün sənətkarlıq yaradıcılığında bir istiqamət kimi nəzər-diqqəti cəlb edir. Bu H.Arifin şerlərində də belədir.H.Arif şeri xalq bədii düşüncəsinə köklənmiş poeziyadır.Onun fəlsəfi- estetik mahiyyətində böyük sadəlikdən xalq müdrikliyinə qədər nəzərə çarpacaq hər şey var. Bu H.Arifin təbiət mövzulu şerlərində də, məhəbbət mövzulu şerlərində də hətta rənglər palitrasında da belədir.Məhz onun təbiət şairi adlan-ması təsadüfi deyil.

Təbiət özü poeziyadır. Təbiət təcəssümü mövzusu həmişə olduğu kimi 70-ci illər Azərbaycan poeziyasında da mühüm yer tutur. Azərbaycan poeziyasında bu istiqaməti ənənənin ən istedadlı,novator davamçısı Hüseyn Arif sözün həqiqi mənasında təbiət şairi idi.Onun ilham qaynaqları min bir rənglə boyanmış təbiətin gözəllikləri, torpaq inciləri idi. Şair vətən torpağını qarış-qarış gəzmiş, buz bulaqların suyundan icmiş,palıd əzəmətini,qartal vüqarını,təbiət gözəlliklərini hiss etmış,dönə-dönə mənən yaşamışdır. İstər lirik şerlərində,istərsə də epik əsərlərində o,torpağı bütün rəngləri,çalarları ilə əks etdirməklə,bu torpaqda böyüyən sadə adamları əsl məhəbbətilə tərənnüm edir.

Onu düşünürəm fikrimdə aləm,
İlk eşqim,son andım bu günə kimi,
Bir ovuc torpaqdan dönən deyiləm,
Bir ovuc torpağa dönənə kimi.

Dərin fəlsəfi – bəşəri mənalı təbiət gözəlliklərinin tərənnümcüsü olan Hüseyn Arif şerlərində özünü təbiətin övladı sayır.Şair vətən torpağı,onun füsünkar təbiəti ilə nəfəs alır. Zümrüd də, yaqut da bir ovuc Vətən torpağından dəyərsizdir.Çünki torpaq qızıl,zümrüd məkanıdır.Ən qiymətli inci isə insandır.

Vətən nə zümrüddür,nə yaqut,nə zər,
Qızıl bu gün məndə,sabah səndədir.
Əbədi özüllər,əbədi köklər
Bir ovuc torpağın üzərindədir.

Hüseyn Arif sənətkar kimi düşüncələrinin sadəliyi, səmimiliyi,mövzu axtarışlarından başlayır. Şair cölün,çəmənin,torpağın,qayaların “ dilini” yaxşı bilir.O,adi söhbət zamanı onlarca dağ çiçəyinin,gülünün,otunun ,pəncərinin adını çəkmiş,onların hansı azar-bezara məlhəm olduğunu,harada bitdiyi,ondan necə istifadə qaydalarını izah etmiş,xalq təbabətinin bu sahədəki ənənlərindən xəbərdar olmuşdur.Vətənini çiçək-çiçək taniyan şairimizin çiçəklə başlanan söhbəti bəzən ictimai-fəlsəfi sonluqla qurtarır:

Gün var mənimlə yaşar,
İl var yadımdan çıxıb,
Tikan var fikrimdədir,
Gül var yadımdan cıxıb.

Xalq ədəbiyyatında çiçəklər haqqında deyilmiş coxlu bədii nümunələrə rast gəlirik.Qurbanın “ Bənövşə”,” Aşıq Hüseyn Şəmkilinin “ Sari gül”. H.Arif də bu ənənəni davam etdirərək güllər,çiçəklər haqqında müxtəlif motivli,rəngarəng formalı şerlər yazmışdır. Güllər haqqındakı şerlərini oxuyarkən sənətkarın hər bir çiçəyin xarici görünüşünü, ifadə etdiyi mənanı insan taleyi ilə bağlı təqdimi oxucunu heyran edir.Sanki gül də insanilәşir,maraqlı obraza çevrilir.Məsələn: “ Xəzan çiçəyi” şerində göstrir ki,payız çiçəyi dağlarda sona qalır,el arana köçəndən sonra torpaqdan baş qaldırıb tənhalığa düçar olur.Qız – gəlinlər onu tellərinə düzüb qoxulayırlar :

…Əzəldən həmdəmi təklik,çən,çisək
Bir də səhər yeli,axşam küləyi,
Acı taleyini düşünüb ona
Cobanlar ad verib : xəzan çiçəyi.

H.Arif canlı ilə cansız arasında,maddi ilə mənəvi arasında körpü yaradır. O,təbiətin təcəssümünə həsr olunmuş şerlərində təbiətlə insanın bağlılığını verir. Təbiətdə insanı görməyə,onun da insani keyfiyyətlərə malik olduğunu oxucuya çatdırmağa çalışır.Məsələn: “ Göy göl yaşıl meşənin Göy gözlü balasıdır”, “Tək dəniz qocalmayır”,” Bağrına basdı dəniz”, ”Sarı xalısını salıbdır payız” və s. kimi bu müqayisələr şairin təbiətə,torpağa,təbii gözəlliklərə son dərəcə vurğunluğunu ifadə edir. Azərbaycanın füsünkar gözəlliyi, şiş qayaları,ulu dağları odlu şair qəlbindən,sənətkar gözündən kənarda qalmır.

H.Arifin yaradıcılığında “dağ” obrazı xüsusi bir xətlə keçir.Dağ obrazına müraciət şairin bir daha Aşıq Alı, Aşıq Ələsgər ənənələrinə,S.Vurğun,M.Şəhriyar sənətinə bağlılığını nümayiş etdirir. Eyni zamanda təbiətin bu zaman əsərinə müraciətlə öz fəlsəfi – poetik obrazını yaradır,estetik idealını əks etdirir.

Dağlar təbiətin ucalıq əyilməzlik,böyüklük,yaraşıq mücəssiməsidir.Şahid dağların ülvi gözəlliyi,ehtişamlı mənzərəsi,qartal əzəməti bu el nəğməkarını riqqətə gətirir, onu gəncliyə səsləyir,ruhuna qol-qanad verib,şairi daima cavan saxlayır.

Yorğunluq,arğınlıq
nədir bilmirəm,
Meşələr ovlağım
dağlar məskənim.
Harda uşaqlığım
bitdi bilmirəm
Gəncliyim əllidən
başlayır mənim.

H.Arif dağ mövzusuna müraciətdə təkcə onu əzəmət və vüqar mücəssəməsi kimi göstərməklə kifayətlənmir. Eyni zamanda,bu obraz bütün mahiyyəti etibarilə yeni poetik məna kəsb edir. Daglar zahiri əzəmətilə nəzərdə canlanaraq canlılara xas mənəvi keyfiyyətlərlə dağa məxsus əlamətlər müqayisə edilir:

Hər dag bir binadır daşlı,ağaclı,
Onu sellər,sular naxışlamışdır.

Hər dağ bir qaladır, ana təbiət
Qurub insanlara bağışlamışdır

-deyə şair dağları təbiətin övladı sayaraq sanki onları canlandırır,insanla eyniləşdirir.

H.Arifin poetic məramında insan,torpaq,və təbiət aparıcısıdır.Şair insanları ana təbiəti yaxından tanımağa,təbiət gözəlliklərini duymağa,sevməyə səsləyir.Ma-raqlıdır ki, təbiəti, təbiətdəkilərlə yanaşı, təbii hadisələri də şerlərində canlı kimi alır.

Dağa çıxdım,yanıldım sağ-solumu,
Buz göynətdi ayağımı,qolumu,
Bir nəfəsə üçü kəsdi yolumu,
Biri duman,biri çiskin, biri çən.

H.Arif poeziyasının ənənəsi və novatorluğu məcazlardan ustalıqla istifadə edilməsində də özünü göstərir. Şerdə səslərin,sözlərin düzülüşü zamanı onlar mənaya,məzmuna xələl gətirmir, əksinə onu daha canlı ürəyəyatan,oxunaqlı edir.Məsələn:

Gəl çıxaq seyrinə uca dağların,
Çəmən olan yerdə xalça nə lazım.
Gözündən su içək buz bulaqların,
Lilpar olan yerdə dolça nə lazım.

Buludla dərdini bölən dağlara,
Şəfəqlə şadlanıb,gələn dağlara,
Yəhərli,yüyənli köhlən dağlara
Cığır kəməndini atdı babalar.

H.Arif meşə,torpaq,su,çəmən,dağları sadəcə təcəssüm etdirməklə kifayətlənmir. O,təbiət möcüzəsini poeziya həqiqətinə çevirir,vətənin hər qarışında insanların xariqələr yaratdığını göstərir.Səməd Vurğuna həsr etdiyi “ Yolda”,”Dağ kəndi”,” Şamxor –SES nəğmələri” kimi poemalarında təbiət gözəlliklərinin təsvir və tərənnümü daha geniş, epik-lirik planda,rəngarəng üslublarda əks etdirmişdir. Məhz bütün bunlar ədəbiyyatda və ədəbi prosesdə H.Arifin təbiət şairi adlanması qənaətini doğurmuşdur.Bu deyimləri ilə o poeziyada daha cox uğurlar qazanmış və original təfəkkür sahibi kimi nəzər – diqqəti özünə cəlb etmişdir.

H.Arifin məhəbbət mövzusunda yazdığı şerləri obrazlılığı,asan dili,yığcamlılığı ilə oxucular arasında tez yayılır.Onun şerlərində təkcə kiminsə eşqi ifadə edilmir.Burada böyük mahiyyət və anlam daşıma xüsusiyyəti daha qabarıq görünür.Sadəcə olaraq iki şəxsin sevgisinə yox,eyni zamanda başqa məqsədə də xidmət edir.İnsanları məhəbbətdən xeyirxahlığa qüvvət,bədxahlığa sədd kimi istifadə etməyə cağırır.

Söylədim,ülvi məhəbbət!...
Aləmə bəllidir ondakı qüdrət.
Qananı qandırıb Məcnunə nisbət,
Qanmazı endirib,Məşdibad eylər

H.Arifin lirikasında məhəbbət motivinin təcəssümü də folklorumuzun incə,intim məqamlarına söykənməklə yanaşı,onun güclü fəlsəfi – social tutumunu da əhatə edir.

Biri – can ! – söyləyib,biri cövr edib,
Hərə bir cür gəzib, bir cür dövr edib,
Əsli təmizdirsə təmiz ömr edib,
Ağriya, aciya dözər gözəllər.

Xalqa,xalq şerinə yaxınlıq baxımından H.Arif qədər yaxın olan ikinci şair tapmaq cətindir.Onun hər misrasında xalq ruhunun ifadəsi görünür.Eyni zamanda son dərəcə maraqlı ümumiləşdirmələrin aparılması aydınlıqıa nəzərə çarpır.

H.Arifin ürəyinin hər bir güşəsində vətənə,anaya,yara,övlada məhəbbət üçün xüsusi “yer ayrılıb”.Bunlar heç bir zaman bir-birinin yerini tuta bilməz.Belə olmasaydı şairin nənə, baba,ana,atalara həsr olunmuş şerləri bu qədər sevilməzdi. O,ana adının müqəddəsliyinə heyranlıqla deyir:

Ən böyük sənətkarın
Şah əsəri anadır.
Ayın da, Günəşin də,
Bərabəri anadır.

Bütün bunlar H.Arif yaradıcılığında məhəbbətin böyük mahiyyət kəsb etdiyimi aydın şəkildə göstərir.Bu sadəcə olaraq iki şəxsin qarşılıqlı sevgisindən ibarət olmayıb, övlad, valideyn, yurd, torpaq, dünya sevgisinə qədər çalarlı bir səciyyə daşıyır.Onun kökləri isə xalqdan,gen yaddaşından baş alıb gəlir. Və xalq bədii düşüncəsinin H.Arif şerində poetic inikasını xarakterizə edir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1.H.Arif. Ayrı düşəli.Bakı, Gənclik,1983. (bədii nümunəyə istinad) səh.23.
2. H.Arif. Ayrı düşəli.Bakı, Gənclik,1983. (bədii nümunəyə istinad) səh.26.
3.H.Hüseynzadə.Sən mənimlə get.Bakı,1966. ( bədii nümunəyə istinad) səh.5-85.
4.H.Arif.Dünya fikir dünyasıdır.Bakı,Yazıçı.1992.səh. ( bədii nümunəyə istinad) 5-176.
5. H.Hüseynzadə.Sən mənimlə get. Bakı.1966. (bədii nümunəyə istinad) səh. 39.
6. 4.H.Arif.Dünya fikir dünyasıdır. BakıYazıçı.1992. (bədii nümunəyə istinad) Səh.48.
7. H.Arif. Ayrı düşəli. Bakı,Gənclik,1983. ( bədii nümunəyə istinad) səh.33.
8.H.Arif.Ömür deyir. Bakı. Gənclik. 1981. ( bədii nümunəyə istinad).səh.196.
9.H.Arif.Secilmiş əsərləri. Bakı, Yazıçı.1985.səh 226.
10. H.Arif.Dünya fikir dünyasıdır. Bakı,Yazıçı.1992.səh. (bədii nümunəyə istinad) Səh.148.

Açar sözlər : şer, folklor, torpaq, aşıq , düşüncə ,həssas,yamac, təcəssüm, yaradıcılıq,müraciət.
Key Words : poem, folklore, land,ashuq, thinking, sensible, slop, embodiment, activity, application

РЕЗЮМЕ

Г. Ариф высоко оценил родину, любовь к земле, таинственную красоту природы, величие человеческой любви в своем творчестве. В статье было показано все о стихах Г. Арифа на эту тему. Деятельность Г. Арифа богата стихами на различные темы, часть его творчества - фольклор. Г.Ариф путешествовал по всему Азербайджану, собирал образцы фольклора и пользовался их творчеством. Он применил к прекрасным образцам ашугских стихов, которые представляют собой интересные темы, богатые композиции и факторы, которые привлекают его народную литературу в его произведениях. Есть интересные темы, богатые треки, факторы, которые заставляют его ссылаться на народную литературу. Прежде всего, он слушал фольклорные примеры стариков и ашугов об удивительной природе, великолепных горах, зеленых ковровых склонах и использовал их в качестве главной особенности своей работы. Все эти проблемы являются основной темой статьи.

SUMMARY

H. Arif highly appreciated his homeland, love for the land, the mysterious beauty of nature, the greatness of human love in his work. The article showed everything about the verses of H. Arif on this article. H. Arif's activity is rich with poems on various theme, part of his work is folklore. H.Arif has traveled all over Azerbaijan and collected folklore samples and has benefited from their creativity. He applied to beautiful examples of ashug poems, in which there are interesting themes, rich compositions, and factors that attract his folk literature in his works. There are interesting themes, rich tracks, factors that make him refer to folk literature. First of all, he listened to folklore examples of old men and ashugs about the amazing nature, magnificent mountains, green carpet slopes, and used them as the main feature of his work. All these problems are the main topic of the article.

RƏYÇİ: dos. S.Abbasova